# Olimpiya Festivalının Bakıda keçirilməsi Azərbaycana olan etimadın ifadəsidir

**Bu gün dünyanın diqqəti yenidən Azərbaycana yönəlib. Artıq 15-ci dəfə təşkil olunan Avropa Gənclər Yay Olimpiya Festivalı paytaxt Bakıda keçirilir. Bu mötəbər idman bayramına 50 ölkədən 4 mindən çox idmançı və texniki nümayəndə, habelə azarkeş-tamaşaçı gəlib. Yarış yenicə başlasa da, idmançılarımız kifayət qədər yüksək əzmkarlıq göstərərək xalqımızı parlaq qələbələri ilə sevindirirlər.**



Festivalı Azərbaycan idmançıları üçün, bir növ, sınaq yarışları da saymaq olar. Çünki bu yarışlarda öz bacarıqlarını nümayiş etdirən gənc milli atletlərimiz uğurlu nəticələr əldə etdikləri halda gələcəkdə Avropa Oyunları, Olimpiya Oyunları kimi böyük mötəbər yarışlara da qoşulublar.

Azərbaycan Avropa Gənclər Yay Olimpiya Festivalına bundan əvvəki beynəlxalq yarışlarda olduğu kimi, ciddi hazırlaşıb və bu, hazırda idman bayramının gedişində özünü qabarıq büruzə verir. Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiçin sözlərilə desək, Bakı yalnız irimiqyaslı tədbirlərin keçirilməsi üçün lazım olan infrastruktura malik deyil. Azərbaycan paytaxtı, həm də özündə digər əsas komponentləri – yüksək təşkilatçılıq, həvəs və səmimiliyi də birləşdirir.

Bu festivalın Bakıda reallaşması, eyni zamanda, paytaxtımızın gözəlləşən simasını, ölkəmizin sosial-iqtisadi inkişafını dünyaya nümayiş etdirmək baxımından da mühüm önəm daşıyır. Belə möhtəşəm idman tədbirinin respublikamız üçün digər əhəmiyyəti isə ölkəmizə turist axınının ildən-ilə güclənməsi, həmçinin əcnəbi idmansevərlərin Azərbaycana marağının artması ilə bağlıdır. Hazırda ölkəmizdə Gənclər Yay Olimpiya Festivalının gerçəkləşdirilməsi ilə Avropa idmançıları və onların Bakı şəhərinə gələn çoxsaylı azarkeşləri, həm də xalqımızın qonaqpərvərliyinin şahidi olur, şərəfli tariximiz, mədəniyyətimiz, zəngin mətbəximiz barədə məlumatlanırlar. Bunun da gələcəkdə vurğuladığım kimi, ölkəmizin turizm potensialının yüksəlməsinə böyük töhfə verəcəyi şübhəsizdir.

Yay Olimpiya Festivalının Azərbaycanda keçirilməsi, eyni zamanda, dövlətimizin nüfuz göstəricisidir. Təsadüfi deyildir ki, son 16 ildə ölkəmizin beynəlxalq təşkilatlarla əlaqələri intensivləşib, respublikamızın müxtəlif təşəbbüslərdə iştirakı fəallaşıb. Şərqlə Qərbin, Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycan sivilizasiyalar, mədəniyyətlər və dinlərarası dialoqun gerçəkləşdiyi əsas mərkəzə çevrilib.

Xatırladım ki, Azərbaycan Avropa Oyunlarının keçirildiyi ilk ölkə olmaqla, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula-1", habelə çoxsaylı müxtəlif idman növləri ilə bağlı beynəlxalq yarışlara ardıcıl evsahibliyi etməklə sabitlik, əmin-amanlıq məkanı olduğunu dünyaya bir daha nümayiş etdirib. Eyni zamanda, bu mötəbər yarışların Azərbaycanda təşkili irimiqyaslı idman tədbirlərinin keçirilməsində respublikamızın malik olduğu potensial imkanları bütün dünyaya göstərib, ölkəmizin beynəlxalq idman aləmində nüfuzunu daha da artırıb.

Azərbaycanın hərtərəfli və dinamik inkişafı, ictimai-siyasi sabitlik, mühüm beynəlxalq tədbirlərin gerçəkləşdirilməsində əldə olunan geniş təcrübə, müasir idman infrastrukturunun yaradılması, eləcə də idmançılarımızın beynəlxalq yarışlarda qazandığı uğurlar Avropa Gənclər Yay Olimpiya Festivalının məhz Azərbaycanda, paytaxt Bakıda təşkil olunmasını, uğurla reallaşdırılmasını şərtləndirən başlıca amillərdən biridir.

Avropa Gənclər Yay Olimpiya Festivalının ölkəmizin həyatında oynadığı rolun əhəmiyyətindən danışarkən, onu da deyə bilərəm ki, hər hansı beynəlxalq əhəmiyyətli tədbirin paytaxtımızda reallaşdırılması, bu tədbirin təşkilatçıları tərəfindən ölkəmizə etimad göstərilməsi, ilk növbədə, dünyada Azərbaycana olan münasibəti də nümayiş etdirir. Ümumiyyətlə, dünya miqyasında respublikamızın nüfuzunun yüksək olması belə tədbirlərin Bakı şəhərində gerçəkləşdirilməsində önəmli ictimai-siyasi sabitlik, təhlükəsizlik, xalq-iqtidar birliyi, demokratik dəyərlərin qorunması, bütün dinlərə, mədəniyyətlərə hörmət, dözümlülük kimi amillər dünya ictimaiyyətinin diqqətini çəkir. Belə olan halda beynəlxalq əhəmiyyətli hər hansı tədbirin ölkəmizdə keçirilməsinə hər hansı etiraz da olmur. Əksinə, həmin tədbirin təşkilatçıları Azərbaycana etimad göstərirlər. Zaman-zaman Azərbaycanda ən yüksək səviyyədə beynəlxalq tədbirlərin gerçəkləşdirilməsi bu etimadı daha da artırıb.

Respublikamızın idman sahəsində əldə etdiyi uğurlar möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı məqsədyönlü və düşünülmüş siyasətin inamla həyata keçirilməsinin məntiqi nəticəsidir. Dövlətimizin başçısının dediyi kimi, bunlar sadəcə olaraq, niyyət sənədi, şüar toplusu deyil, düşünülən, konkret tədbirlər planıdır. Onların icra qrafiki, mexanizmləri və maliyyə resursları mövcuddur və Azərbaycan reallaşdırdığı bu uğurlu siyasətə, eyni zamanda, idman vasitəsilə əlavə töhfə verir.

Bəli, bu gün bütün dünyanın diqqəti Bakıdadır. Azərbaycan vətəndaşları da bununla fəxr edir, qürur hissi keçirirlər. Paytaxtımızdakı canlanma və səliqə-sahman, gözəllik sakinlərimizi də, əcnəbi qonaqları da məmnun edir.

***Hüseynbala MİRƏLƏMOV,***
***Milli Məclisin deputatı,***
***YAP Xətai rayon***
***təşkilatının sədri***

Xalq qəzeti.- 2019.-23 iyul.- S. 6.